

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 151 (21.812)

11 avqust 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik


İcmal

## Naxçıvan Muxtar Respublikasında həyata keçirilən uğurlu islahatlar inkişafın davamlı xarakter almasını təmin edib

### İyul ayının nəticələri də belə deməyə əsas verir

***Ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikasında müxtəlif sahələri əhatə edən dövlət proqramlarının həyata keçirilməsi nəticəsində innovativ inkişaf davamlı xarakter alıb. Milli və bəşəri dəyərlərin vəhdətdə yaşadıldığı muxtar respublikada bu gün aparılan məqsədyönlü dövlət siyasəti sayəsində müasir sənaye kompleksləri yaradılıb, özəl sektorun fəaliyyəti genişləndirilib. Sevindirici haldır ki, bütün bölgələrin sosial-iqtisadi yüksəlişində, eyni zamanda həmin bölgələrdə yaşayan insanların məşğulluğunda müstəsna rol oynayan kənd təsərrüfatının inkişafı istiqamətində də muxtar respublikada kompleks tədbirlər həyata keçirilib.***

Kənd təsərrüfatının rentabelli inkişafı həm də ərzaq təhlükəsizliyinin təmin olunması kimi mühüm bir məsələnin həllinə imkan verir. Bu gün həyata keçirilən aqrotexniki tədbirlər, keyfiyyətli toxum və gübrə təminatı, torpaqların münbitləşdirilməsi və müasir irriqasiya sistemlərinin istifadəyə verilməsi Naxçıvanda taxıl əkini sahələrini xeyli genişləndirib. Onu da qeyd edək ki, bu ilin məhsulu üçün muxtar respublikada 22 min 268 hektar sahədə buğda, 9 min 364 hektar sahədə isə arpa əkilib.

Kəngərli rayonunun Böyükdüz kəndindəki 400 hektar ərazidə isə mütəraqqi əkin və suvarma metodlarından istifadə edilib. Belə ki, bu taxıl sahəsində şırım üsulu ilə yerli iqlim şəraitinə uyğun məhsuldar "Qobustan" toxum sortu əkilib. Ərazidə qapalı suvarma şəbəkəsinin quraşdırılması, zərərvericilərə və xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin görülməsi taxılın vegetasiya dövründə yaxşı inkişafına və bol məhsul istehsalına səbəb olub.

İyulun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlib, taxıl biçininin gedişi ilə maraqlanıb.

Kənd təsərrüfatında özünəməxsus yer tutan heyvandarlığın inkişafı da muxtar respublikada diqqət mərkəzində saxlanılır. Son illər Naxçıvanda heyvandarlıqla məşğul olan təsərrüfat subyektlərinə maliyyə dəstəyinin gücləndirilməsi, qarışıq yem istehsalı müəssisələrinin fəaliyyətə başlaması, təbii yem və otlaq sahələrinin su təminatının yaxşılaşdırılması, həmçinin qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin icrası heyvandarlığın inkişafına öz təsirini göstərib, daxili bazarda heyvan mənşəli ərzaq məhsullarının istehsal həcmində artım əldə olunub.

Bunu faktlar da sübut edir. Belə ki, 2000-ci illə müqayisədə 2017-ci ilin ötən dövründə muxtar respublikada iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların sayı 2 dəfəyədək artıb. Hazırda muxtar respublikada 235 böyük heyvandarlıq, 65 quşçuluq, 102 arıçılıq, 15 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir. Dövlət qayğısının nəticəsidir ki, bu gün muxtar respublikada 3 ət, 12 süd, 1 gön-dəri emalı, 1 balıq konserv, 1 yem istehsalı müəssisəsi və 2 yem sexi fəaliyyət göstərir.

Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti muxtar respublikada mövcud olan 117 min başdan çox iribuynuzlu, 728 min başdan artıq xırdabuynuzlu heyvanların, 1 milyon başdan çox quşların, 70 min arı ailəsinin, o cümlədən vəhşi heyvanların yarada biləcəyi epizootoloji vəziyyəti nəzarətdə saxlayır. Göstərilən yüksək dövlət dəstəyi, təsdiq olunmuş tədbirlər planı, koordinasiyalı fəaliyyət, yaradılmış kadr potensialı, maddi-texniki cəhətdən təchiz olunmuş laboratoriyalar qarşıya qoyulan məqsədə nail olmağa imkan verir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində 2016-2017-ci illərdə baytarlıq xidməti sahəsində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən səyyar müşavirədə bu məsələlər ətraflı müzakirə olunub.

Ali Məclisin Sədri dezinfeksiya işlərinin aparılması, epizootik vəziyyətin təhlilinə nəzarətin gücləndirilməsi, aşkar olunan xəstəliklərə qarşı operativ tədbirlərin görülməsi, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi, yerli arı genofondunun mühafizəsi, arı xəstəliklərinin qarşısının alınması üçün qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi, ali və orta ixtisas məktəblərində baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin təcrübi biliklərinin daha da möhkəmləndirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadə edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Sonra Ali Məclisin Sədri Dövlət Baytarlıq Xidmətinin işdə fərqlənən əməkdaşlarına xalça və saat hədiyyə edib, texniklərə yeni alınan 3 ədəd süni mayalandırma avadanlığı təqdim olunub.

Əhəmiyyətli geostrateji mövqedə yerləşən Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, qədim tarixi, mədəniyyəti, zəngin təbii sərvətləri, heyrətamiz təbiəti, havası, təmizliyi, insanların gülərüz və mehriban olması muxtar respublikaya səfər edən xarici ölkələrin diplomatik korpuslarının nümayəndələrinin də diqqətini cəlb edir, onlarda xoş təəssüratlar yaradır.

İyulun 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufsla görüşüb.

Dünyanın sivilizasiya mərkəzlərindən biri olan Naxçıvanın qədim tarixinin öyrənilməsi istiqamətində son illər mühüm işlər görülüb, muxtar respublikada mindən artıq müxtəlif təyinatlı abidə qeydə alınıb, milli-mədəni irsimizi yaşadan əsərlər, xüsusilə "Naxçıvan abidələri ensiklopediyası" nəşr edilib. Türk-islam mədəniyyəti əsrlər boyu böyük Türk dünyasının, eləcə də azərbaycanlıların inkişafına güclü təsir göstərən mühüm amil olub. Faktdır ki, müxtəlif iddiaların əksinə olaraq naxçıvanlılar 653-cü ildə ərəblərlə bağlanmış müqavilə nəticəsində könüllü olaraq İslam dinini qəbul ediblər. Bu müqavilə elmi, siyasi və tarixi baxımdan diqqəti cəlb edir. Dini etiqada görə, təktanrıçı olan naxçıvanlılar Nuh Peyğəmbərin davamçıları kimi də etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Naxçıvanın İslamı qəbul etmiş əhalisinin bu mədəniyyətin daşıyıcısı kimi çıxış etməsi regionun maddi-mənəvi həyatında da tədricən yeni dövrün, türk-islam mədəniyyəti dövrünün başlanmasına rəvac verib.

İyulun 7-də "Naxçıvan" Universitetində "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfransın plenar iclasında səslən-dirilən bu və digər faktlar elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilən beynəlxalq konfransın öz işinə başlaması münasibətilə təşkilatçılara təşəkkür edib, qonaqları salamlayıb. Ali Məclisin Sədri deyib: ***"Azərbaycanın Naxçıvan diyarında türk-islam mədəniyyəti on ikinci əsrdə özünün intibah mərhələsinə çatıb. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə Yaxın Şərq və islam memarlığında yeni bir məktəbin əsasını qoyub. Son illər muxtar respublikada qeydə alınan dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələrdən 70-ə yaxını bərpa olunub. Bu gün müstəqil Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da dini-mənəvi dəyərlərimizə hörmətlə yanaşılır. Min illər ərzində formalaşan tarixi-mədəni irsimizi, xüsusilə türk-islam mədəniyyəti ənənələrini davam etdirən naxçıvanlı memarlar yeni axtarışları, tapıntıları və nailiyyətləri ilə dəyərli sənət nümunələri yaradırlar. Müasir şəhərsalma işlərində türk-islam mədəniyyəti elementlərindən məqsədyönlü şəkildə istifadə olunur".***

Bu gün Naxçıvanın zəngin tarixi-mədəni irsi onun türk-islam mədəniyyətinin mərkəzi kimi əhəmiyyətini daha da artırır. Bu mənada, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi təsadüfi deyil. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi tərəfindən keçirilən "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransı muxtar respublika ərazisindəki türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi və təbliğində yeni mərhələnin əsasını qoyacaqdır.

Qeyd edək ki, beynəlxalq konfransın plenar iclası *"nakhchivan.az"* internet saytında canlı yayımlanıb, dünyanın bir sıra ölkələrində plenar iclasın gedişi maraqla izlənilib. Həmin gün beynəlxalq konfrans öz işini bölmə iclaslarında davam etdirib.

Ölkəmizin, o cümlədən muxtar respublikamızın inkişafında fərqlənənlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. İyulun 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib.

Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden, medal və fəxri adlarının döş nişanları və vəsiqələrini təltif olunanlara təqdim edib.

Naxçıvan Muxtar Respublikasında bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, investisiyaların daha çox regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin təmin edilməsi həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin ana xəttini təşkil edir. Muxtar respublikanın hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlər isə öz nəticəsini verməkdədir. Belə ki, Naxçıvanda bir il öncəyə nisbətən sənaye məhsulunun həcmi 1,2 faiz, əsas kapitala yönəldilən investisiyalar 1,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 3,1 faiz, informasiya və rabitə xidmətləri 2 faiz, pərakəndə əmtəə dövriyyəsi 1,3 faiz, əhaliyə göstərilən pullu xidmətlər 1,7 faiz, ixracın həcmi 1,3 faiz, əhalinin gəlirləri 1,1 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 2,5 faiz artıb.

İyulun 25-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında bu barədə ətraflı məlumat verilib, bu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları müzakirə edilib.

2017-ci ilin birinci yarısında muxtar respublikamızın sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qarşıda duran vəzifələrlə bağlı əlaqədar dövlət qurumlarına konkret tapşırıqlar verib. Ali Məclisin Sədri deyib: ***"Naxçıvan Muxtar Respublikasında 2017-ci ilin ilk yarısının nəticələri həyata keçirilən tədbirlərin düzgün olduğunu bir daha təsdiq edir. 2017-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş məruzəsində ölkə rəhbəri cənab İlham Əliyevin də dediyi kimi, "2017-ci il iqtisadi inkişaf ili olmalıdır... Keçən il iqtisadi, maliyyə sabitləşməsi ili olmuşdur. Bu il isə inkişaf ili olacaq. Əminəm ki, bundan sonrakı illərdə də iqtisadi potensialımız daha da güclənəcəkdir".***

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında, "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilib, "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu, "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul olunub.

İyulun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında belçikalı şair-dramaturq, Nobel mükafatı laureatı Moris Metterlinqin "Göy quş" əsərinin tamaşasına baxış olub.

Tamaşadan sonra Ali Məclisin Sədri səhnə arxasına keçərək yaradıcı heyətlə görüşüb. Ali Məclisin Sədri rejissora və kollektivə təşəkkür edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qardaş Türkiyənin yaxın vilayətləri arasında elm, təhsil, mədəniyyət və iqtisadi sahədə əlaqələr daim inkişaf edir. İyulun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası İqdır Vilayətinin yeni valisi Ənvər Ünlü ilə görüşüb.



***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi siyasətin strateji məqsədi sosialyönümlü, diversifikasiya olunmuş, özünüinkişaf qabiliyyətli iqtisadiyyatın qurulmasıdır. Qürurla deyə bilərik ki, muxtar respublika bu sahədə tarix üçün olduqca qısa sayılan zaman kəsiyində qibtəediləcək nailiyyətlər qazanıb, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsi adekvat olaraq bütün sahələrdə modernləşməyə əsaslı təkan verib. Naxçıvanın blokada vəziyyətində özünəməxsus milli inkişaf modelini yaratması Azərbaycan dövlətinin ən böyük uğuru, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun təntənəsidir. Bu, çətin şəraitdə yüksəlişin əldə edilməsinin mümkünlüyünün konkret və əyani göstəricisidir. Naxçıvanda qazanılmış uğurlu nəticələr, inkişafın sabit və dayanıqlı səciyyə daşıması qabaqcıl idarəçilik metodlarının tətbiq edilməsi ilə birbaşa bağlıdır.***

**Rauf KƏNGƏRLİ**

## Bir gün mərcan gözlü Batabatda



**Şahbuz rayonunun, sözün həqiqi mənasında, Naxçıvan adlı ulu məmləkətimizin mərcan gözü olan Batabat yaylağında arıçılarla görüşüb həmsöhbət olmaq, onların oba həyatını görmək üçün həmin ünvana getmək fikrimiz qətiləşəndə yadıma bu kiçik rayonun sovet dönəmi düşdü. Ucqar əyalət timsallı təbii gözəlliklər diyarı elə bil yaddan çıxmış bir yurd yeri idi. Kənddən seçilməyən indiki Şahbuz şəhərinin ovaxtkı miskin görkəmi, darısqal, tozlu-torpaqlı küçələri buraya rayon mərkəzi deməyə imkan vermirdi.**

*Yolumuz Şahbuz şəhərinədir*

Bu gün o mənzərələr yoxdur daha. Şahbuz şəhəri müasirliyə qovuşub. Rayon mərkəzinin girəcəyindəki Bayraq Meydanından başlayaraq gözəl mənzərələr insanı ovsunlayır. Belə mənzərələr elə təəssüratlar yaradır ki, neçə illər qabaq gördüklərini bir an belə, xatırlamaq istəmirsən. Və düşünürsən ki, şəhər də, kənd də, qəsəbə də insan kimidir, qayğı istəyir, nəvaziş istəyir. Bu gün Şahbuzun hər bir ünvanı belə qayğıdan yetərincə bəhrələnib.

*Batabata gedən yol insanın ruhunu təzələyir*

Qarşımıza çıxan ilk kənd Kolanıdır. Bu kənd rayonun iri yaşayış məntəqələrindən biridir. Dadlı-tamlı meyvələri, keyfiyyətli balı, dişgöynədən suyu, digər kənd təsərrüfatı məhsulları ilə tanınan Kolanıya gedən yol müasir standartlar səviyyəsində yenidən qurulub. Ümumilikdə isə, demək olar ki, Şahbuz rayonu ərazisindəki yolların hamısına son illərin quruculuq tədbirlərindən pay düşüb. Bu isə o deməkdir ki, nəqliyyatın intensiv hərəkəti təmin olunub. Bir yaşayış məntəqəsindən digərinə gedən insanlar belə rahat yolların salınmasını onlara göstərilən qayğı kimi dəyərləndirirlər.

Budur, Kolanı kəndinə çatırıq. Kənddə son illərin quruculuq tədbirləri olan kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası 2008-ci ildə sakinlərin ixtiyarına verilib. Bu ünvanlarda yüksək iş şəraiti yaradılıb. Muxtar respublikanın bütün kənd yaşayış məntəqələrini əhatə edən belə tədbirlər kəndlərimizi müasirliyə qovuşdurmaqla, həm də sosial-iqtisadi inkişafımızdan soraq verir.



*Yolumuz Batabat yaylağınadır. Bu yol Biçənəkdən keçir*

Müasirliyə qovuşmuş Kolanıdan xoş təəssüratlarla ayrılıb Biçənəyə üz tuturuq. Şüşə kimi asfalt yol bizi 5-10 dəqiqədən sonra Biçənəyə çatdıracaq. Əyləşdiyimiz maşının pəncərəsindən içəri dolan xəfif meh qəlbimizə bir sərinlik gətirir. Bu sərinlik getdikcə artır. Dağların qoynunda yerləşən yurd yerinə çatırıq. AMEA-nın müxbir üzvü, mərhum Adil Bağırovun bu kəndin adının etimologiyası ilə bağlı gəldiyi qənaəti xatırlayıram. Alim yazırdı ki, çox haqlı olaraq bu adın mənşəyini tədqiqatçılar qədim türk-peçeneq tayfasının adı ilə bağlayırlar. Mahmud Kaşğarlı qeyd edirdi ki, peçeneq tayfası oğuz tayfalarından biridir. Bu fakt türk sultanı Əbülqazi Bahadır xanın "Seçere-i terakime" əsərində də öz əksini tapıb.

Akademik Ziya Bünyadov Biçənək toponimində qədim türk-peçeneq tayfa adının əks olunduğunu göstərib, ondan sonra dilçi və toponimçi alimlərimiz də bu məsələyə eyni mövqedən yanaşıblar. Adil Bağırov bu fikrə tərəfdar olaraq belə qənaətə gəlirdi ki, Biçənək sözü qədim peçeneq tayfa adını özündə yaşadan onomastik vahiddir.

Bu gün Biçənək öz müasir həyatını yaşayır. Muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərindən bu kəndə də pay düşüb. 2001-ci ildə burada yeni məktəb binası inşa olunub. 2008-ci ildə biçənəklilər kənd və xidmət mərkəzlərinin açılışlarının sevincini yaşayıblar. Kənd mərkəzinin binasında həm də feldşer məntəqəsi yaradılıb. Bu il fevral ayının 15-də yenidən qurulan kənd məktəbinin binası təhsilin səviyyəsinin yüksəldilməsində başlıca amillərdən biri olub. Kolanıdan Biçənəyə qədər olan yolun yenidən qurulması kənddən bir qədər aralıda yerləşən Batabat yaylağına gediş-gəlişi xeyli artırıb. Elə ki istilər düşməyə başladı, ta payızın soyuqlarınadək Batabat yaylağı insanlarla dolu olur. Gözəl şairimiz İslam Səfərlinin misralarını xatırlayıram:

*Bulaqların bir səmtədir axarı,*<br>
*Salvartının xoş görünür baxarı,*<br>
*Biçənəkdən at səyridib yuxarı,*<br>
*Yalmanına yata-yata gəlmişəm,*<br>
*Mərcan gözlü Batabata gəlmişəm.*

*Füsunkar Batabat yaylağında arıçılarla söhbət*

Hər il yaz aylarından başlayaraq buraya regionumuzun müxtəlif bölgələrindən arı ailələri gətirilir. Ərazinin füsunkar təbiəti, təmiz havası, suyu, gül-çiçəyi keyfiyyətli bal üçün ən gözəl xammaldır. Buraya gələrkən muxtar respublikada arıçılığın inkişafı ilə bağlı əldə etdiyim statistik rəqəmləri xatırlayıram. Tarixi qaynaqlara görə, Naxçıvanda arıçılıq – vəhşi arı balı toplamaq, meşə arıçılığı və mütərəqqi arıçılıq kimi inkişafın bütün mərhələlərini keçib. XIX əsr və XX əsrin əvvəllərindən Naxçıvanda arıçılığın xüsusi təsərrüfat sahəsinə çevrildiyi, hətta bəzi təsərrüfatlarda böyük arıxanaların olması haqqında məlumatlara rast gəlirik. XIX əsr rus tədqiqatçısı V.Q.Qriqoryevin məlumatlarına görə, həmin yüzilliyin 30-cu illərində Ordubad dairəsində əhalinin əksəriyyəti arıçılıqla məşğul olub. Tədqiqatçı N.N.Şavrov yazırdı ki, Ordubad qəzasında 3500 arı ailəsi saxlanılıb. Həmin dövrdə K.A.Qorbaçev Ordubad ərazisində 2 arı cinsinin olması haqqında məlumat verib.

Bu gün muxtar respublikada 70 min arı ailəsi saxlanılır. Bu da 1 yanvar 1996-cı il tarixə olan göstəricidən 8,8 dəfə çoxdur. Arı ailələrinin artımı məhsul istehsalına da müsbət təsir göstərib, 2016-cı ildə muxtar respublikada 1403 ton bal istehsal edilib.

Muxtar respublikada arıçılığın inkişafını stimullaşdırmaq məqsədilə 2016-cı ildə Naxçıvan şəhərində "Arıçılıq məhsulları – bal festivalı" keçirilib. Ötən il arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə 335 min 600 manat, ümumilikdə, son beş il ərzində 2 milyon 341 min 600 manat həcmində kreditlər verilib.

"2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi bu sahəyə dövlət qayğısının daha bir ifadəsi kimi arıçılıqla məşğul olanlar, eləcə də muxtar respublika sakinləri tərəfindən rəğbətlə qarşılanıb.

Yaylaqda Babək rayonunun Cəhri kənd sakini Natiq Alməmmədov, Şahbuz rayonunun Şahbuzkənd sakini Nazim Piriyev, Kolanı kənd sakini Etibar Səfərov və başqaları ilə həmsöhbət oluruq. Kolanılı Etibar Səfərov deyir ki, 50 arı ailəsi bəsləyir. Hər il də yüksəkkeyfiyyətli məhsul istehsalına nail olur. Buna başlıca səbəb arı ailələrini Batabat yaylağında saxlamasıdır. Onun sözlərini 65 arı ailəsi bəsləyən cəhrili Hacı Siyasət Əmirov da təsdiq edir. Deyir ki, arı saxlamaqla hələ gənc yaşlarından məşğuldur. Ağlı kəsəndən atasının arıçılıqla məşğul olduğunu görüb. Bu sahənin sirlərini ondan öyrənib. Arı çox həssas və qayğı sevəndir. Onların dilini bilməyən adam arı saxlaya bilməz. Siyasət kişinin sözlərinə görə, arıçılıq, sözün həqiqi mənasında, bir elmdir. Bu elmi öyrənmək üçün hövsələ, səbir və təcrübə lazımdır. O deyir ki, sovet dönəmində də arı saxlayıblar. Lakin o dövrdə qoyulan məhdudiyyətlər üzündən saxladıqları arıların verdiyi məhsul ancaq öz ailələrini görürdü. İndi isə belə deyil, kim nə qədər istəyir, bir o qədər arı saxlaya bilər. Bu gün təbəbatın arıçılıqla məşğul olaraq ödəyən ailələr az deyil.

Digər arıçılar da söhbətə qoşulurlar. Arıçılıqla, balla bağlı yaranan zərbməsəllərdən, atalar sözlərindən danışırlar. Balın, arı südünün müalicəvi əhəmiyyət daşıdığını dilə gətirirlər. Bu gün arıçılığın inkişafına göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirən arıçılar onu da dedilər ki, muxtar respublikanın təbii-coğrafi iqlimi, zəngin floraya malik olması arıçılığın geniş yayılmasına imkan verir. Bu sahənin Naxçıvanda nə vaxtdan yarandığı elmə dəqiq məlum deyil. Ancaq Ballıqaya, Pətəklik, Pətəkqoyulan kimi coğrafi adlarını bu gün də mövcud olması burada insanların qədim dövrdən arıçılıqla məşğul olduğunu göstərir.

Arıçılarla söhbətimizi başa çatdırmalı oluruq. Çünki şəhərə qayıtmaq üçün ayrılmaq vaxtıdır. Başımı qaldırıb əsrarəngiz Batabatı bir daha seyr edirəm. Yenə də yadıma İslam Səfərlinin misraları düşür:

*Vüqarlıdır zirvələrin, qaşların,*<br>
*Üzə gülür qayaların, daşların.*<br>
*Mən İslamam, öz səsimi quşların*<br>
*Nəğməsinə qata-qata gəlmişəm,*<br>
*Mərcan gözlü Batabata gəlmişəm.*

**Muxtar MƏMMƏDOV**



*Naxçıvan Muxtar Respublikası müxtəlif faydalı qazıntı yataqları ilə zəngindir. Ərazicə kiçik olsa da, muxtar diyarımızın hər bölgəsində təbiətin bizə bəxş etdiyi yerüstü və yeraltı sərvətlər iqtisadi inkişaf baxımından unikal imkanlar ortaya qoyur. Belə əhəmiyyətli ərazilərə malik bölgələrimizdən biri də Kəngərli rayonudur. Rayonun ərazisi müxtəlif təbii ehtiyatların zənginliyi ilə diqqət çəkir. Belə ki, muxtar respublikada ən böyük travertin və əhəng yataqları bu bölgənin payına düşür. Hələ Sovetlər Birliyi dövründən rayon ərazisində istismar olunan bu yataqlar tikinti sənayesində mühüm yeniliklərin tətbiqinə şərait yaratmış, muxtar respublikamızın keçmiş SSRİ məkanında tanınmasına səbəb olmuşdur.*

*Təbii sərvətlərimiz*

## Qarabağların travertin yataqları keyfiyyətli daş məhsulları üçün xammal mənbəyidir



Rayonun ən böyük yaşayış məntəqəsi olan Qarabağlar kəndi isə həm tarixi-mədəni, həm də böyük travertin ehtiyatlarına malik ərazi kimi tanınır. Kəndin şimal-qərb hissəsində böyükhəcmli daş yataqları ötən əsrin 80-ci illərindən mühəndislər tərəfindən istismara cəlb olunmuş, istehsal edilən məhsul həm muxtar respublikada, həm də regionumuzdan kənarda tikinti sənayesində istifadə olunmuşdur. Su və nəmliyə davamlılığı, yüksək təzyiqə dözümlülüyü və digər müsbət keyfiyyətləri ilə seçilən travertin daşları o zamanlar ittifaq səviyyəli tikinti obyektlərinin, o cümlədən metro stansiyalarının, park və müxtəlif mədəniyyət müəssisələrinin fasadında istifadə edilmiş, ornamental memarlıq nümunələrində işlədilmişdir. Ancaq xalqımızın bu cür təbii sərvətlərin əsl sahibinə çevrilməsi müstəqilliyimizin bərpasından sonra mümkün olmuşdur. "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağlar kəndindəki daş karxanasında olduğumuz zaman bu fikirlər müsahibimiz tərəfindən bir daha səsləndirildi.

Məhərrəm Zeynalov adıçəkilən müəssisənin Qarabağlar daş karxanasının müdiridir. Onunla elə Qarabağlardakı istehsal müəssisəsində görüşdük, buradakı yataqlar, istehsal prosesi haqqında məlumat verməsini xahiş etdik. Onun dediklərindən: "Qarabağlar kəndindəki travertin yataqları "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin ən böyük xammal yataqlarından biridir. Bu daş yataqları Sovetlər Birliyi dövründə istismar olunur. Ötən əsrin sonlarına doğru istehsal prosesində fasilələr yaransa da, sonrakı dövrdə, müstəqilliyimizin bərpasından sonra daha müasir avadanlıqlar və texnikaların köməyi ilə işlər davam etdirilib. Elə xalqımız həmin dövrdən də öz sərvətlərinin sahibinə çevrilib. Buradakı travertin ocağının yerləşdiyi ərazi təsdiq olunmuş hesablamalara görə 50 hektarı əhatə edir. Mədəndə istehsal prosesinə 2005-ci ildən başlanılıb. Digər yatağımız – Qarabağlar oliv ocağı isə 2008-ci ildən fəaliyyətə başlayıb və bunun da sahəsi 5 hektardır. Hazırda daş karxanasının yaxınlığında fəaliyyət göstərən istehsal müəssisəsi 2009-cu ildə istifadəyə verilib. 10 min kvadratmetr əraziyə malik müəssisədə, əsasən, travertin və mərmər bloklar istehsal olunur. Burada Türkiyədən gətirilmiş müasir avadanlıqlar quraşdırılıb, eyni zamanda yataqlarda 9 ədəd müxtəlif texnikalardan istifadə olunur".

Məhərrəm Zeynalov iş prosesi haqqında danışmazdan əvvəl bildirdi ki, Sovetlər Birliyi dövründə yataqlardan daş çıxarılma prosesi indiki kimi müasir üsullarla aparılmırdı. Daşın çıxarılması, əsasən, güclü partladıcı vasitələrlə aparılırdı ki, bu da xeyli xammal itkisinə səbəb olurdu. Həmin daşlar sonra bloklar şəklində kəsilərək daşınırdı. Ondan da müxtəlif üzlük və döşəmə daşları hazırlanırdı. İndi isə bütün işlər müasir texniki avadanlıqların köməyi ilə aparılır, itkiyə yol verilmir. Əvvəlcə kəşfiyyat xarakterli qazıntı işləri görülür və daş kəsilərək nümunə götürülür, keyfiyyəti yoxlanılır. Kəsilən daşlar hər gün ağırtonnajlı avtomobillər vasitəsilə Şahtaxtı stansiyasına daşınıb yük vaqonları ilə istehsal müəssisələrinə göndərilir. Həmin daşlardan tələbata uyğun olaraq müxtəlif üzlük plitələr, mozaik divar daşları və sair hazırlanır. Buradakı istehsal müəssisəsində isə, əsasən, kiçikölçülü daş parçalarından istifadə olunur. Onlardan bordürlər, döşəmə daşları və digər çeşiddə tikinti materialları hazırlanır. Qarabağlar daş karxanasında hazırda 100-dən çox işçi çalışır. Onların əksəriyyəti Qarabağlar, Yurdçu, Şahtaxtı kəndlərindəndir ki, bu da həmin kənd sakinlərinin məşğulluq məsələlərinin həllində önəmli rol oynayır. Müsahibimiz onu da qeyd etdi ki, burada işçilərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Daş karxanasının yerləşdiyi dağlıq əraziyə elektrik xətti, su çəkilib, avtomobil yolu salınıb. İşçilər üçün yeməkxana, hamam, 12 yerlik yataqxana mövcuddur. İş prosesində təhlükəsizlik tədbirlərinə ciddi əməl olunur.

Qeyd edək ki, Çalxanqala kəndində də 2008-ci ildən daş karxanası fəaliyyət göstərir və buradakı daş yatağının sahəsi 10 hektardır. Hazırda Qarabağlar və Çalxanqala kəndləri ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşlar emal üçün "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal müəssisəsinə göndərilir və burada müxtəlif çeşiddə daş məhsulları hazırlanır. Həmin daş məhsullarından isə həm muxtar respublikamızın tikinti obyektlərində istifadə olunur, həm də paytaxt Bakı şəhərinə və Gürcüstan Respublikasına göndərilir.

*Qarabağlar kəndindəki daş karxanasından ayrılırıq... Bizdən bir az aralıda blok şəklində kəsilmiş daşlarla yüklənmiş yük avtomobilləri də hərəkət edir. İstehsal müəssisələrində bu bloklardan hazırlanacaq daş məhsulları müxtəlif ünvanlara göndəriləcək, neçə-neçə binaların, küçə və parkların, bağ evlərinin bəzəyinə çevriləcək.*

**Səbuhi HƏSƏNOV**

## Çinin nüfuzlu “CCTV-4” kanalının əməkdaşları Naxçıvanda çəkiliş aparıblar

***Çinin nüfuzlu “CCTV-4” telekanalı “Vətən – xəyallar ölkəsi” adlı səyahət mövzulu verilişinin növbəti buraxılışını Azərbaycana həsr edib. Telekanalın çəkiliş qrupu 3-9 avqust tarixlərində Naxçıvan Muxtar Respublikasında çəkiliş aparıb.***

Səfərin ilk günü qonaqlar Naxçıvan Dövlət Xalça Muzeyi və “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar. Növbəti gün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində çəkilişlərə başlayan qonaqlara məlumat verilib ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan “Huawei” şirkəti Azərbaycanda fəaliyyətinə Naxçıvandan başlayıb. Şirkət tərəfindən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıq çərçivəsində 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Təhsil Mərkəzi qurulub.



Qonaqlar “Naxçıvan” Universitetinə gələrək burada İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi ilə tanış olublar. Sonra çəkiliş qrupu Duzdağ Fizioterapiya Mərkəzində olub. Burada bildirilib ki, mərkəz muxtar respublikanın əsas səhiyyə turizmi obyektlərindəndir. Mərkəzə dünyanın müxtəlif ölkələrindən yüzlərlə insan müraciət edir.

Avqustun 5-də Naxçıvan Dövlət Universitetində çəkiliş qrupu ilə görüş keçirilib. Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru Seymur Talıbov və tədris işləri üzrə prorektoru Surə Seyid ali təhsil ocağının tarixi inkişaf yolu, tədris imkanları və beynəlxalq əlaqələri haqqında qonaqlara məlumat veriblər. Media Mərkəzi, “Universitet” televiziyası və “Nuhçıxan” radiosu ilə tanışlıq qonaqların böyük marağına səbəb olub. Həmin gün universitetdə “Huawei” şirkətinin xətti ilə Çin Xalq Respublikasında təcrübə keçən tələbələrlə də görüş olub.

Avqustun 7-də çəkiliş qrupu Naxçıvan Dövlət Televiziyası və Radiosu ilə tanış olub. Bildirilib ki, son illər televiziyanın və radionun maddi-texniki bazası xeyli gücləndirilib, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilib, ən müasir texniki avadanlıqlarla təchiz edilib. Diqqətə çatdırılıb ki, bu gün dünyanın istənilən yerindən Naxçıvan Dövlət Televiziyasını internet vasitəsilə izləmək mümkündür. Dublyaj redaksiyası, çəkiliş pavilyonları, montaj otaqları ilə tanış olan qonaqlara televiziyanın istehsalı olan 31 sənədli film, televernisaj və videoçarx təqdim olunub.

“CCTV-4” telekanalının əməkdaşları səfərin sonuncu günü çəkilişlərini Əlincəqalada davam etdiriblər. Qonaqlara müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunmuş Əlincəqalanın tarixi haqqında məlumat verilib.

**Xəbərlər şöbəsi**

***İnsan cəmiyyətində sosial həyatın bəzi aspektləri var ki, onlar zamanla dəyişmək, daim inkişafda olmaq məcburiyyətindədir. Bunlardan biri də əmək fəaliyyətidir. Bu prosesdə fiziki və əqli qabiliyyəti imkan verən hər kəs iştirak edir. Hələ qədim dövrdə insanlar özünüməşğulluqla həyatlarını davam etdirirdilər. Min illər ötüb keçdi, müasir dünyanın sosial-iqtisadi həyatında yenə özünüməşğulluq fəaliyyətinə ehtiyac yarandı. Burada söhbət fiziki və ya hüquqi şəxsdən əməkhaqqı almayaraq özünü sosial baxımdan təmin edən insanlardan gedir. Özünüməşğulluqda bir şəxs əmək prosesini təşkil edir. Gəlir əldə edilməsi isə yalnız özündən asılıdır. Burada işəgötürən yoxdur, özü öz məşğulluğunu yaradır və məsuliyyət daşıyır. Özünüməşğulluq insanların ikinci iş yeri də ola bilər. Ölkəmizin qanunvericiliyinə görə özünüməşğulluq əmək qabiliyyətli şəxslərin müstəqil surətdə özünü işlə təmin etməsidir.***

## Ailələrin rifahının yüksəldilməsində özünüməşğulluq fəaliyyəti mühüm rol oynayır

İyulun 25-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada məşğulluq problemi daim diqqət mərkəzində saxlanılır. İstər dövlət, istərsə də özəl sektorda yeni iş yerləri yaradılır. Lakin əhali sayında müşahidə olunan müsbət dinamika öz növbəsində gələcəkdə yeni iş yerlərinə tələbatı artıracaqdır. Ona görə də vətəndaşlar üçün daha əlverişli olan özünüməşğulluq sisteminə keçməkdir”.***

Bir neçə ildir ki, muxtar respublikada əhalinin müəyyən bir qismi özünüməşğulluğa cəlb olunub. Lakin bu sistemə keçmək tam fərqli və sosial-iqtisadi sferada sərhədsiz bir anlayışdır. Bu, o deməkdir ki, istənilən sahədə əhali özünüməşğulluğunu qura bilər.

Muxtar respublikada həyata keçirilən sosial siyasətin əsas hədəflərindən biri də aztəminatlı ailələr üçün passiv sosial təminat tədbirlərindən aktiv məşğulluğa, gəlirlərini artıra biləcək mərhələyə keçidin təmin edilməsidir. Bu, əslində, sosial siyasəti tamamlayan məqsədyönlü islahatdır. Artıq proses yeni mərhələdə davam etdirilir. İlkin olaraq gəlirləri ehtiyac meyarından aşağı olan ailələr həmin layihəyə cəlb olunur. Bu yaxınlarda muxtar respublika ictimaiyyəti bu qəbildən olan ailələrin özünüməşğulluğu üçün tədbirlərə start verildiyinin şahidi olub. Aztəminatlı 15 ailənin hər birinə fərdi təsərrüfatlarını qurmaq üçün “Simmental” cinsli inəklər verilib.

Reallıqdır ki, ünvanlı dövlət sosial yardım proqramı aztəminatlı ailələrin minimum maddi tələbatlarının ödənilməsinə yönəldiyi üçün həmin ailələr bu qrupdan çıxa bilmir. Yəni dövlətin ünvanlı dövlət sosial yardımı üçün ayırdığı müavinət aztəminatlı ailəni, sadəcə, bu aydan növbəti aya keçid üçün minimum yaşayışını təmin edir. Əslində, sosial siyasətin məqsədi də ailənin, necə deyərlər, müəyyən bir müddətə dolanışığını təmin etməkdir. Başqa sözlə desək, valideyn öz övladını necə himayə edərək müəyyən yaşa çatdırırsa, eynilə dövlətin də məqsədi ünvanlı dövlət sosial yardımı verməklə ailəni tam sosial baxımdan özünü təmin edəcək səviyyəyə çatdırmaqdır. Bu da reallıqdır ki, ünvanlı dövlət sosial yardımı, əmək qabiliyyəti olmayan vətəndaşlar istisna olmaqla, digərlərinə davamlı verilə bilməz. Aztəminatlı ailələrin əmək qabiliyyətli üzvlərinin həm özlərinə, həm də cəmiyyətə fayda verəcək işlərlə məşğul olması zəruridir.

Onu da deyək ki, təkcə 2017-ci ilin yanvar-iyun ayları ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 998 min 623 manat həcmində ünvanlı dövlət sosial yardımı ödənilib. Düzdür, dövlət əmək qabiliyyətli üzvü olmayan vətəndaşının gündəlik tələbatını ödəmək üçün bu müavinəti verir. Lakin əmək qabiliyyətli üzvü olan aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardıma ümid bağlaması doğru deyil. Bu qəbildən olan insanlar üçün özünüməşğulluğun təmin olunması məsələnin köklü həllində ən yaxşı vasitədir. Həmin insanlar dövlətin göstərdiyi maddi və digər dəstəyin nəticəsi olaraq özü öz məşğulluğunu təmin edə bilərlər. Bu mənada, aztəminatlı ailələrin aktiv məşğulluq tədbirlərinə cəlb olunmaları əlavə iş yerlərinin yaradılmasına, ailə gəlirlərinin artırılmasına imkan yaradır.

Statistik məlumatlar təsdiq edir ki, ünvanlı dövlət sosial yardım alan ailələrin əksəriyyəti kənd yerlərində yaşayanlardır. Əslində, kənd yaşayış məntəqələri özünüməşğulluğu təmin etmək üçün ailələrə daha əlverişli imkanlar vəd edir. Biznesdən fərqli olaraq kənd təsərrüfatı ilə məşğul olmaq daha asan, itkisiz və perspektivlidir. Digər tərəfdən, həmin yerlərdə ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsi, özünüməşğulluğun stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi üçün dövlət də öz dəstəyini əsirgəmir. Belə bir şəraitdə ailələr zəhmətə qatlaşmaqla öz əməklərinin bəhrəsini görə bilərlər. İnsanın öz əməyinin bəhrəsi isə daha bərəkətli və necə deyərlər, şirin olur.

Dinimizə görə də torpağı əkib-becərmək, zəhmətkeş olmaq, elə baxmamaq, sağlamlığın imkan verirsə, öz əlinin qazancını yemək daha yaxşıdır, hətta savab hesab edilir. İslam dinində torpaq və ondan əkinçilik üçün istifadə məsələləri zəruri sayılır. Yer üzünün torpaq rəmzində müqəddəsləşməsi, onun insan həyatının əzəli və axirət məkanına çevrilməsi ilə bağlıdır. Məhəmməd Peyğəmbər buyurub ki, *“Yer üzünü məsh edin, o, sizə xeyirdir, bərəkətdir. Torpaq insanın anası, yəni onu yedirdən, içirdən, qidalandırandır”.*

Ünvanlı dövlət sosial yardımı minimum yaşayışı təmin edə bilər. Bu mexanizm heç vaxt yaşayış standartını yüksəltmək gücündə deyil. Lakin özünüməşğulluğu seçən insanlar ildən-ilə sosial baxımdan güclənmək imkanı əldə edə bilərlər. Zaman keçdikcə bunu inkişaf etdirib sahibkar olduqdan sonra hər kəs istədiyi həyat şəraitini qura bilər. Əmək qabiliyyətli əhali üçün özünüməşğulluğu ünvanlı sosial yardımla fərqləndirən əsas amil də budur.

Özünüməşğulluğa təkcə aztəminatlı ailələrin cəlb edilməli olduğu xüsusi sosial layihə kimi yanaşmaq yanlışdır. Belə ki, aztəminatlı olmayan, lakin işaxtaran əhali qrupu da ondan faydalana bilər. Məsələn, bu gün ən geniş yayılmış özünüməşğulluq ticarətdir. Çünki hər kəs alqı-satqı prosesində hansısa formada iştirak edir. Dayə bacarığına sahib olmaq da günümüzdə özünüməşğulluq üçün yaxşı peşədir. Və yaxud təmir sahəsi. Eləcə də dərzi, pinəçi, avtomobil, məişət əşyalarının təmiri – bütün bunlar özünüməşğulluq kateqoriyasına aiddir. Repetitorlar da bu qəbildən hesab edilir. Bu, əsasən, ziyalı təbəqənin ikinci iş yeri – özünüməşğulluğu sayılır. Sosial təminatının ödənilməsində ikinci məşğulluq yerinin seçilməsi heç də pis deyil. Lakin bu, özünüməşğulluq sisteminə salındıqdan sonra dövlət də cüzi vergi tətbiq etməklə buradan toplanan vəsaiti özünüməşğulluq proqramına yönəldə bilər.

Beynəlxalq təcrübədə özünüməşğulluğun bir dövlət siyasəti kimi həyata keçirilməsinin 40 ilə yaxın tarixi vardır. Hələ ötən əsrin 80-ci illərində Avropa ölkələrində özünüməşğulluq proqramları həyata keçirilib. Məsələn, Fransada “İşsiz sahibkar” (işçisi olmayan sahibkar) proqramı qəbul olunaraq icra edilib. Böyük Britaniyada “Özünü inkişaf” proqramı ölkənin 18 yaşından yuxarı işsiz vətəndaşlarını əhatə edib. Onlar məşğulluğa uyğun müvafiq kursları, treninqləri bitiriblər. Bəzi özünüməşğulluq proqramına qoşulanlar isə işinə məsuliyyəti olsun deyə, dövlətin verdiyi məbləğlə yanaşı, az bir miqdarda (aldığı qrantın 10 faizi) seçdiyi sahəyə vəsait qoymalı idi. Statistikaya görə, Amerika Birləşmiş Ştatlarında məşğul əhalinin 30-40 faizi həmin proqramlara qoşularaq məşğulluğunu təmin etmiş insanlardır. Ümumiyyətlə, özünüməşğulluqla bağlı müxtəlif ölkələrdə fərqli proqramlar həyata keçirilsə də, ümumi məqsəd eyni olub: birdəfəlik maddi və digər yardım göstərməklə, müəyyən peşələrə uyğun təlimlər keçməklə, əhalinin bacarıqlarını artıraraq işsizliyi aradan qaldırmaq.

Naxçıvanda da özünüməşğulluq təcrübəsi mövcuddur. Bu məqamda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən bu sahədə görülən işləri qeyd etmək yerinə düşərdi. Hələ 2012-ci ildə muxtar respublikada elan olunmuş “Milli dəyərlər ili” çərçivəsində komitə tərəfindən qadınların əl işlərinin sərgi-satışı təşkil edilib. İlkin olaraq o zaman bu sərgi-satışlara milli və mənəvi dəyərlərimizin qorunması və yaşadılması aspektindən yanaşılırdı. Lakin burada iştirak edən qadınların əksəriyyətinin evdar qadın olması yeni fikir yaratdı. Belə ki, onların hazırladıqları əl işləri milli dəyərlərimizin qorunması ilə paralel özünüməşğulluq forması kimi qəbul edildi və bu iş muxtar respublikada kütləvi xarakter almağa başladı. O zamandan nəinki Naxçıvan şəhərində, eləcə də muxtar respublikanın rayon mərkəzlərində təşkil olunan sərgi-satışlar, 2015-ci ildən “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən əl işləri mağazasında qadınların əl işlərinin satışının həyata keçirilməsi özünüməşğulluğun inkişafına xidmət edir. Təkcə ötən il komitə tərəfindən 304 qadının 1069 əl işinin, cari ilin ötən dövrü ərzində 175 qadının 802 əl işinin satışını həyata keçirməsi və əldə olunan qazancın həmin qadınlara verilməsi onların özünüməşğulluğuna dəstəkdir.

Bu sistem ayrı-ayrı fərdlərin, onların timsalında ailələrin məşğulluğunu təmin etsə də, digər tərəfdən iqtisadiyyatda mühüm faktor olan kiçik və orta sahibkarlığın inkişafına, yeni iş yerlərinin açılması prosesinin daimi olması hədəfinə çatmaq üçün dəyərli vasitədir. İqtisadiyyatın şaxələndirilməsi dövrünü yaşayan muxtar respublikada özünüməşğulluq yeni dinamikanın yaranmasında hərəkətverici qüvvədir.

*Muxtar respublikada dövlət siyasəti çərçivəsində həyata keçirilən özünüməşğulluq sahəsinə vətəndaşlarımızın da ürəkdən qoşulması və ailələrinin xoş güzəranı üçün səy göstərməsi dövlətimizin də marağında olan məsələlərdəndir. Bunu dəyərləndirmək isə vətəndaşlarımızın üzərinə düşən vəzifə və ya ailəsi qarşısında daşıdığı məsuliyyətdir. Məlumdur ki, qonşudan pay gözləyən üçün zaman uzun, gələn pay yetərsizdir. Zəhmətə qatlaşanlar üçün isə zaman qısa, əməyin bəhrəsi isə dəyərlidir.*

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***

## *“Yay tətili uşaqların gözü ilə”* devizi altında təşkil olunan festivalın növbəti ünvanı Şahbuz rayonu olub

***Şahbuz şəhərində, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstirahət Parkında “Yay tətili uşaqların gözü ilə” devizi altında festival təşkil edilib.***

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Şahbuz Rayon İcra Hakimiyyəti və rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən festivalda Şahbuz rayonunda fəaliyyət göstərən məktəbdənkənar müəssisələrin kollektivləri iştirak ediblər.

Əvvəlcə 2016-2017-ci tədris ilində keçirilən müsabiqələrdə uğur qazanan Şahbuz rayonunun məktəbdənkənar müəssisələrinin 6 ən fəal dərnək üzvü və 6 ən yaxşı dərnək rəhbərinə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev və Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov tərəfindən diplomlar təqdim olunub.

Tədbirin aparıcıları qeyd ediblər ki, muxtar respublikada uşaqların sağlam, bilikli, vətənpərvər böyüməkləri üçün geniş imkanlar mövcuddur. Belə ki, hər il muxtar respublikada ümumtəhsil müəssisələri üçün yeni binalar tikilir, məktəblərin maddi-texniki bazası möhkəmləndirilir, tədris ocaqları müasir informasiya texnologiyaları ilə təmin olunur, açıq və örtülü idman qurğuları yaradılır. Bunu Şahbuz rayonunun da timsalında aydın görmək olar. Son illər rayonda 23 ümumtəhsil məktəbi ilə yanaşı, idman, şahmat məktəbləri və Uşaq Yaradıcılıq Mərkəzi üçün binalar tikilərək və ya yenidən qurularaq müəllim və şagirdlərin ixtiyarına verilib. Rayonda fəaliyyət göstərən 6 məktəbdənkənar müəssisə də hərtərəfli qayğı əhatəsindədir.



Sonra rayonun məktəbdənkənar müəssisələrində fəaliyyət göstərən istedadlı uşaqların hazırladıqları əl işləri – rəsm, toxuma, tikmə, dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunub, bir-birindən maraqlı mahnılar səsləndirilib. Uşaq və yeniyetmələr şahmat taxtası arxasında yarışıb, idmançılar bacarıqlarını nümayiş etdiriblər. Məktəblilərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə keçirilən festival rayon sakinləri tərəfindən də maraqla qarşılanıb.

Qeyd edək ki, bundan əvvəl analoji tədbirlər Naxçıvan şəhəri və Şərur rayonunda təşkil olunmuşdu.

**Səbuhi HÜSEYNOV**

# Rənglər dünyasına bağlanan ömür

***Rəssamlar təkcə rəsm əsərləri çəkən insanlar deyil, onlar həyatdakı hər görüntüdə belə, bir gözəllik axtaran, bu gözəlliyi yeddi rəngin harmoniyası ilə kətana köçürən sənətkarlardır. Haqqında söhbət açacağım Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov da belə rəssamlardandır.***



Telman Abdinov muxtar respublikanın dilbər guşələrindən olan Şahbuz rayonunun Külüs kəndində dünyaya göz açıb. Orada orta təhsil alıb. Onunla söhbət əsnasında bu sənətə olan həvəsinin təsadüfən yaranmadığını öyrəndim. Telman Abdinovun dediklərindən: "Nənəm Şərəbanı gözəl xalça toxuyan olub. Hələ uşaq vaxtlarımdan onun ilmələrə vurduğu rənglərə böyük maraqla baxar, vaxtımın necə gəlib keçdiyini bilməzdim. Rəssamlıq sənətinə də həvəsim elə o vaxtlardan yarandı. Orta məktəbdə oxuyarkən təsadüfən dünya şöhrətli rəssam Mikayıl Abdullayevin əsərlərindən ibarət nəfis şəkildə tərtib olunmuş bir kitab-albom əlimə keçdi. Kitabı vərəqlədim. Adi kibrit qutusu elə canlı verilmişdi ki, rəsmə baxan adam əlini atıb sanki onu götürmək istəyirdi. Bu, mənim hələ o vaxt başa düşə bilmədiyim rəssam təfəkkürünün cansız fırça ilə ərsəyə gətirdiyi həqiqət idi".

Bəli, rəssamı əsrarəngiz rəng çalarlarına bağlayan da belə təsadüflər olub. Bundan başqa, doğma yurdun ecazkar təbiəti hələ orta məktəbdə oxuduğu illərdə onun qəlbində əsrarəngiz duyğular oyatmışdı. O, həmin illərdə gördüyü hər təbiət mənzərəsində – axan suda, sıldırım qayalarda, başı göylərə çatan dağlarımızda bir gözəllik axtarıb. Bu gözəlliklərin ovsunu rəssamı əlinə fırça almağa, gördüklərini yeddi rəngin ahəngi ilə kətana köçürməyə sövq edib. Saatlarla bu maraqlı mənzərələrə baxmaqdan doymayıb və bir gün hiss edib ki, onun bu məşğuliyyəti adi maraq deyil, qəlbən rəssamlığa bağlanmaqdır.

Qəlbinə sirayət edən rəssamlıq həvəsi 1972-ci ildə onun yolunu Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə salmağa sövq edir. Orada təhsil aldığı illərdə rəssamın əsərləri respublika səviyyəli müxtəlif sərgilərdə nümayiş etdirilir. Hələ üçüncü kursda təhsil alarkən təsviri sənətin qobelen üslubunda işlənmiş "Abşeron filmləri" və "Milli qadın çantaları" əsərləri əfsanəvi xalça rəssamı Lətif Kərimovun diqqətini cəlb edir. Sənət aləminə yenicə qədəm qoyan Telman Abdinovun bu əsərləri Azərbaycan rəssamlığına yeni nəfəsin gəldiyindən xəbər verirdi.

Rənglər insan həyatında olduqca mühüm rol oynayır. Telman Abdinov kimi sənətkar rəssamın rənglərlə yaratdığı möhtəşəm tablolar sanki insanlarla sehrli bir dillə danışır. Tabloların hamısı, demək olar ki, yağlı boya ilə işlənib. Kənardan baxdıqda obrazların nəinki cizgilərini, ruhunu belə, görmək olur.

Azərbaycan Rəssamlar İttifaqının üzvü Telman Abdinovun boya, qrafika janrlarında bir çox əsərləri var. Yaradıcılığında portret, mənzərə və natürmort janrları xüsusi yer tutur. Hər bir əsərində ömrünün bir parçası əks olunmuş rəssamın yağlı boya ilə çəkdiyi "XXI əsrin balaca Heydəri", "Payız", "Batabat çiçəkləri", "Rəssamın stulu" və saymaqla bitməyən tabloları insanı heyrətləndirir. Onların sırasında seçiləni isə ümummilli liderimiz Heydər Əliyevin portretidir. Rəssamın yaratdığı bu portret əsərlərinin heç birinə bənzəmir. İstedadlı fırça ustası təsvir etdiyi qəhrəmanın xarakter bütövlüyünü diqqətə çatdırmaq üçün obrazı – dünya şöhrətli şəxsiyyəti əlçatmaz dağların önündə təsvir edir.

Rəssamın yaradıcılığında yer tutan tablolar arasında vətən uğrunda qəhrəmancasına şəhid olmuş Qabil Orucəliyevin portreti də diqqətəlayiqdir.

Telman Abdinovun əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Onun dediklərindən: "Bu gün muxtar respublikamız inkişaf və tərəqqinin yeni mərhələsinə qədəm qoyub. Tikilənlər, qurulanlar göz oxşayır, sosial-iqtisadi inkişafın ən yüksək səviyyəsindən xəbər verir. Bu isə bütün yaradıcı insanların məsuliyyətini daha da artırıb. Həyata keçirilən tədbirlər onların ilham mənbəyinə çevrilib. Bu günləri qələm ilə, fırça ilə sənət əsərlərinə çevirmək yaradıcı insanlara göstərilən qayğıya əməli işlə cavab verməkdir".

Rəssamın rənglərin ahəngi ilə yaratdığı əsərlərdə düşünən və tamaşaçıları da düşünməyə vadar edən yeni bir bədii-estetik məziyyətlə tanış olmaq mümkündür. Doğrudan da, muxtar respublikamızda elə sənətkarlar var ki, yaradıcılığı ilə ətraflı tanış olmağımıza baxmayaraq, onlar həmişə oxunmamış kitaba bənzəyirlər. Belələri hansısa əsəri ilə yaradıcılıq imkanlarını yekunlaşdırmır, yaradıcılıq imkanlarını nəhayətsizləşdirərək tamaşaçını bitib-tükənməyən intizarda buraxırlar. Telman Abdinov da belə rəssamlardandır.

*Bir sözlə, rəssamın böyük sevgi ilə yaratdığı obrazları səmimi və yaddaqalandır. Onun rəngarəng mövzulu əsərləri günbəgün artır və bu əsərlər getdikcə özünə daha çox tamaşaçı toplayır. Bu auditoriya peşəkar rəssamın ecazkar sənəti ilə rənglərin sehrinə düşür, həyata bu rənglərin gözü ilə baxır. Əbədi sənət yolunun yolçusu olan Telman Abdinovun əsərləri vaxtın sınağından keçərək rəssamlıq sənətinin ən dəyərli səhifələrindən birini təşkil edir. Biz də bu yolda rəssama yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Nuray ƏSGƏROVA**

## Muzey bələdçiləri üçün seminar-treninq

*Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbir Naxçıvan şəhərindəki Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində olub.*

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin əməkdaşı Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, ötən il muxtar respublikanın muzey şəbəkələri üçün 11 belə tədbir təşkil olunub. Bugünkü tədbirimiz 2017-ci ildə keçirilən on üçüncü seminar-treninqdir. Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Onlar xarici dilləri bilməli, işlədikləri mədəniyyət ocağı haqqında ətraflı məlumata malik olmalıdırlar.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri müxtəlif kateqoriyadan olan insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalı, nəzakət və davranış qaydaları, geyim tərzi, intellektual dünyagörüşü ilə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar. Muzey bələdçiləri hər bir vətəndaşa qarşı diqqət göstərməli, muzey işi və muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, ziyarətçilərin suallarını ətraflı cavablandırmalıdırlar. Turistlərə qədim diyarımız haqqında hərtərəfli məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksində muzey bələdçisinin təqdimatında ekspozisiyaya baxış olub.

**Əli RZAYEV**

***Həmişə hal-əhval tutduğumuz insanlardan biri ilə təsadüfən yolda qarşılaşırıq. O, qulağında qulaqcıq bizə doğru yaxınlaşır və jest, yaxud da başı ilə bizə salam verib yanımızdan ötüb keçir. Görünür ki, dinlədiyi musiqidən ayrılmaq istəmədiyindən, ayaq saxlayıb həmişəki kimi bizimlə görüşmür. Əminəm ki, bir çoxları gündəlik həyatda belə hadisələrlə qarşılaşıb. Ən azından bir dəfə...***

***Hər yaşdan olan insanların, xüsusən gənclərin bu gün ən yaxın "dostu", eyni zamanda da "düşməni" bəhs etdiyimiz həmin qulaqcıqlardır. Onlardan müntəzəm istifadə edən insanlarda alışqanlıq yaranır. Hətta bəzi insanlar vacib əşyaymış kimi, qulaqcıqsız evdən çıxmır, onları çantalarından əskik etmirlər...***

# Qulaqcıqlardan düzgün istifadə edirikmi?

Xeyrindən çox ziyanı olan qulaqcıqlardan yolda, dayanacaqda, avtobusda, həmçinin evdə belə, musiqi dinləmək üçün istifadə edən insanların sayı günbəgün artır. Bəzən düşünürük ki, kiçik bir əşyadan nə ziyan gələ bilər? Amma araşdırmalar göstərir ki, qulaqcıqlar, əslində, qulaq zədələnməsindən tutmuş baş ağrılarına qədər müxtəlif xəstəliklərə səbəb olur.

Qulaqcıqların səhhətimizə, xüsusilə də eşitmə qabiliyyətimizə vurduğu ziyanla bağlı Naxçıvan Muxtar Respublika Xəstəxanasının Burun-boğaz-qulaq şöbəsinin müdiri Fərman Novruzov ilə həmsöhbət olduq. Fərman həkim dedi ki, müasir dövrdə, xüsusilə gənclərin istifadə etdiyi qulaqcıqlar eşitmə qabiliyyətinin zəifləməsinə səbəb olur. Qulaqcığın səs şiddəti birbaşa qulaq pərdəsinə, ordan daxili qulağa və qulaq sinirinə istiqamətləndiyi üçün zərəri daha çoxdur. Belə ki, yüksək səslə musiqi dinləmək daxili qulaqdakı qulaq sinirlərinə və eşitməni təmin edən qulaq hüceyrələrinə öldürücü təsir göstərir. Eşitmə orqanımız müəyyən həddə kimi səsi qəbul edə bilir. Həddən artıq səs tonu qulağımıza akustik travma verir. Eyni zamanda eşitmə sinirində yorulma halları da olur. Avtomobil idarə edərkən, yolda gedərkən, yaxud da istirahət zamanı qulaqcıqlarla mahnı dinləyərək özümüz də bilmədən eşitmə sinirini yoruruq. Bundan əlavə, onlar xarici qulaq keçəcəyində yerli iltihab prosesləri də yarada bilər. Qulaqcıqları stolun üstündə qoyuruq, yerə düşür və bu şəkildə götürüb ondan istifadə edirik. Yaxud da ondan yalnız özümüz yox, yeri gələndə dost-tanışımız da yararlanır. Bu səbəblərdən infeksiya xarici qulaq keçəcəyinə daxil ola bilər ki, bu da göbələk xəstəliklərinin yaranmasına gətirib çıxarar. Ümumiyyətlə, qulaqcıqlardan həddindən artıq istifadə eşitmə qabiliyyətimizi zəiflədir. Buna görə də insanlar ondan mümkün qədər az istifadə etməlidirlər.

Şöbə müdirinin sözlərinə görə, keyfiyyətsiz qulaqcıqlardan uzun müddət istifadə etmək eşitmə zəifliyinin yaranmasına səbəb olur. Həmin qulaqcıqlarda səs bir tərəfdə daha zəif, ikincisində olduqca güclü olur, amma orijinal qulaqcıqlarda belə problemlə rastlaşılmır. Hər iki tərəfdə səs səviyyəsi eyni olduğundan baş ağrısı vermir və musiqi beyni qıcıqlandırmır. Buna görə insanlara tövsiyə edirik ki, markası bəlli olan qulaqcıqlardan istifadə etsinlər. Elə qulaqcıqlar var ki, qulaq kanalının içinə salınır. Belə qulaqcıqlara insanlar daha çox üstünlük verir ki, bu da çox yanlışdır. Qulaq pərdəsinə nə qədər yaxından səs verilərsə, qulaqların zədə alması ehtimalı o qədər çoxdur. Sutka ərzində 50-60 dəqiqə bəzi şərtlərə riayət etməklə qulaqcıqdan istifadə etmək sağlamlıq üçün heç bir təhlükə yaratmır. Ondan istifadə zamanı səs gücünü 50 faizdən yuxarı qaldırmaq olmaz.

Həkim məsləhətindən də aydın olur ki, qulaqcıqlara gündəlik istifadə etdiyimiz zərərsiz əşya kimi yanaşmaq düzgün deyil. Onlar bizim sağlamlığımıza bilavasitə öz təsirini göstərən çox ziyanlı vasitələrdir. Qulaqcıqların tibbi, eyni zamanda da psixoloji fəsadları var. Bununla bağlı psixoloq Şahnaz Məmmədlinin fikirlərini diqqətinizə çatdırırıq. O deyir ki, insan günün müəyyən saatlarında musiqiyə qulaq asmalıdır. Bəzən musiqiyə qulaq asarkən kimsəni narahat etməməyə çalışırıq ki, bu zaman da qulaqcıqlar köməyimizə çatır. Bundan əlavə, könülsüz iştirak etdiyimiz bir məclisdə də qulaqcıqları qulağımıza taxıb, ətraf aləmdən təcrid olunaraq öz dünyamıza qapılırıq. Ancaq unuduruq ki, qulaqcıqların ziyanlı tərəfləri az deyil. O, ilk növbədə, insanda əzginlik, yorğunluq yaradır. Xüsusən bu cür hallar eynitipli musiqiyə qulaq asanda baş verir. Bu, həmçinin əhval-ruhiyyəyə də təsir göstərir. Eləcə də bədbin və ya şən musiqiyə qədərində qulaq asmaq lazımdır. Həddindən çox və yüksək səslə musiqiyə qulaq asdıqda bu, insanın səhhətində problemlər yaradır.

Məsələn, idman edərkən, ya da gəzintiyə çıxarkən ritmik musiqilərdən istifadə etmək mütləq şərtdir. Çünki idman zamanı etdiyimiz hərəkətlər onunla harmoniya təşkil etməlidir. Ağır templi musiqiyə qulaq asaraq idman etmək mümkün deyil. Əgər ki, bir insan qulağında qulaqcıq həzin bir mahnı ilə idman hərəkətləri edirsə, onun bir faydası olmur. Çünki həmin anda insan idman etdiyini unudur və bütün fikri mahnının onda yaratdığı düşüncələrdə, xəyallarda kilidlənib qalır. Bu zaman o, fiziki işdən çox zehni iş görür.

Psixoloqun sözlərinə görə, düzgün seçilmiş musiqi bizim hərəkətlərimizi də sürətləndirəcək. Lakin dərsdə, yaxud da səhər-səhər işə gedərkən yolda qulaqcıq vasitəsilə asta, həzin musiqilər dinləmək bizim ruhi halımıza mənfi təsir edərək gün ərzində görüləcək işlərimizin ləngiməyinə səbəb ola bilər.

Bəzən insanlar boş vaxtında qulaqcıqla mahnıya qulaq asır və istirahət etdiyini düşünür, lakin belədə onlar, sadəcə, zehinlərini yorurlar. Bu da insanın psixoloji ruhdan çıxa bilməməsinə səbəb olur.

Qulaqcıqlar insanlarla ünsiyyətə də maneçilik törədir. Məsələn, ekskursiyalarda yol aldığımız mənzilə çatmaq üçün müəyyən qədər vaxt lazım gəlir. Dəfələrlə müşahidə etmişik ki, tələbələr bu vaxt ərzində bir-birləri ilə söhbət etməkdən, ünsiyyət yaratmaqdansa, hərəsi qulağına bir qulaqcıq taxıb musiqi dinləyir. Eləcə də ekskursiyadan qayıdanda onlar gedib-gördükləri yer haqqında müzakirə aparmaqdansa, yenə də qulaqcıqlara üz tuturlar.

Qulaqcıqların səhhətimizə və psixoloji vəziyyətimizə mənfi təsiri barədə bir qədər məlumatlansaq da, iş bununla bitmir. Gündəlik həyatımızda onun fəsadları ilə, demək olar ki, hər gün qarşılaşırıq. Danılmazdır ki, gənclər qulaqcıqdan istifadə etdikləri üçün çox zaman yol hərəkəti qaydalarını pozurlar. Yüksək səslə musiqi dinləyən insan başqa aləmdə olur. Dinlədiyi musiqidən asılı olaraq zehnində fərqli düşüncələr kök salır və özü də istəmədən musiqinin təsirinə qapılaraq ondan ayrıla bilmir, cəmiyyətlə bütün əlaqəsini kəsir, səs eşitmir, gözləri görsə də, beyni gördüklərini qavrayıb, dərk etmir. Avtomobilin səs siqnalını eşitməyəndə isə xoşagəlməz yol qəzaları ilə qarşılaşır. Deməli, biz səhlənkarlıq edərək qulaqcıqdan lazımsız yerdə istifadə etdiyimiz zaman öz həyatımızı da təhlükə altına atmış oluruq.

✍ **Fatma BABAYEVA**

***İtmişdir***

Bayramov Ülvi Nizami oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 641